# Quba Tibb Kolleci - həyat məktəbim

**Mən, Arzu Ramazanova Azər qızı, 1988-ci ildə Quba şəhərində dünyaya gəlmişəm. Orta təhsilimi Quba şəhər 4 saylı məktəbdə başa vurduqdan sonra ali təhsilimi müəllimlik ixtisası üzrə davam etdirmişəm. Müəllimlik savad və maarifçilik baxımından mənim üçün böyük əhəmiyyət daşıyır. Lakin uşaqlıqdan anamın tibb sahəsində çalışması məndə bu peşəyə qarşı dərin sevgi və rəğbət yaradıb.**





Elə bu sevgi və ailəmin mənə olan dəstəyi nəticəsində ikinci təhsilimi tibb sahəsində almağa qərar verdim. Quba Tibb Kollecinə daxil oldum və seçdiyim bu yolda daha böyük həvəslə irəlilədim.

Hər zaman oxumağa, öyrənməyə, inkişaf etməyə can atmışam. Qarşıma məqsədlər qoyub onların ardınca getmək mənim üçün həyat fəlsəfəsidir. Gələcək planlarımdan biri isə tibb sahəsində fəaliyyətimi davam etdirmək, insanlara sağlamlıq və qayğı ilə xidmət etməkdir. İnsanların ən çətin anlarında onların yanında olmaq, sağalmasına töhfə vermək mənim üçün həm məsuliyyət, həm də böyük şərəfdir. Bu yolda bilik və bacarıqlarımı daim artırmaq qarşıma qoyduğum əsas məqsədlərdəndir.

Təhsil insanın dünyagörüşünü formalaşdıran, ona həyatda doğru yol göstərən ən mühüm dayaqlardan biridir. Öyrənmək və bilik qazanmaq insanın özünü kəşf etməsinə, cəmiyyətə faydalı bir fərd kimi yetişməsinə imkan yaradır. Təhsilə qoyulan hər bir səy gələcəyin daha sağlam, daha güvənli olmasına xidmət edir. Mən hesab edirəm ki, oxumağın və öyrənməyin yaşı yoxdur. Ürəyində təhsil arzusu daşıyan hər bir kəsə bu arzularını reallaşdırmalarını, öz yollarında inamla addımlamalarını arzu edirəm.

Hər bir insanın özünü tapdığı, ailə kimi gördüyü və olduğu mühitdə varlığından xoşbəxt olduğu anlar olur. Mən bunu özüm ikinci təhsil aldığım Quba Tibb Kollecində hiss etdim, yaşadım.

Birinci təhsilimi müəllimlik üzrə alsam da, insanlara daha yaxından xidmət göstərmək, birbaşa sağlamlığın keşiyində dayanmaq məsuliyyətini dərk edərək tibb sahəsini seçdim. Bu addım mənim üçün sadəcə yeni bir ixtisas deyil, həm də həyatımın ən doğru qərarlarından biri oldu.

Quba Tibb Kollecində keçirdiyim təhsil illəri həyatımda ən dəyərli və əlamətdar mərhələlərdən biridir. Burada tibb sahəsinin necə böyük məsuliyyət, insanpərvərlik və fədakarlıq tələb etdiyini öyrəndim. Ölkəmizin öndə gedən tibb təhsil müəssisələrindən biri olan Quba Tibb Kollecində oxumaq mənim üçün həm böyük şans, həm də qürurdur.

Kollecin Səhiyyə Nazirliyinin nəzarəti altında fəaliyyət göstərməsi bizə yüksək keyfiyyətli, müasir standartlara uyğun bilik və bacarıqlar əldə etmək imkanı yaratdı. Təhsil müddətində yalnız nəzəri dərslərlə kifayətlənmədik, real mühitdə praktik bacarıqlarımızı da inkişaf etdirdik. Tibb etikası, səbr, diqqət, mərhəmət və məsuliyyət kimi peşənin əsas prinsipləri bizə aşılandı.

Bu imkanların yaradılmasında kollecin direktoru Mikayıl Mirzəliyevin böyük rolu var. Onun uzaqgörən rəhbərliyi, tələbələrə göstərdiyi dəstək və qayğı təhsilimizin inkişafına mühüm töhfə verib. Buna görə ona səmimi təşəkkürümü bildirirəm.

Xüsusilə qrup rəhbərimiz Nuranə Əliyevanın əvəzsiz zəhmətini qeyd etmək istəyirəm. O, bizə sadəcə müəllim olmadı, yol göstərdi, motivasiya verdi, hər zaman yanımızda oldu.

Həmçinin aşağıda adları qeyd olunan müəllimlərimizin hər birinə dərin təşəkkürümü bildirirəm:

- Oqtay Ələkbərov
- Aynur Nadirli
- Zəminə Fərzəliyeva
- Azadə Tağıyeva
- Aida Axundova
- Xəyalə Məmmədova
- Xəyalə Mirzəbəyova

**Təhsilimizdə böyük payı olan digər dəyərli həkim-müəllimlərimiz:**

- Gültəkin Məmmədrzayeva
- Hümmət Əliyev
- Pərviz Seyidgülov
- Rəvanə Hüseynova
- Elşən Heydərli
- Rauf Camalov
- Gəray Qurbanov

Bu müəllimlərimizin hər biri tələbəlik həyatımızda unudulmaz iz qoyub. Onlar biliklə yanaşı bizə güclü iradə, dözüm və vətənə xidmət kimi dəyərlər də aşıladılar.

Burada qazandığım dostluqlar, yaşadığım xatirələr, məsuliyyət dolu dərslər və gələcəyə olan inamım birlikdə mənim üçün möhtəşəm bir həyat məktəbidir. Quba Tibb Kolleci mənim üçün bir təhsil ocağından daha çox böyük və dəyərli bir ailə oldu.

Bu gün artıq bir məzun olaraq daha inamlı addımlarla gələcəyə doğru irəliləyirəm. Səhiyyə Nazirliyinin tabeliyində olan tibb müəssisələrində çalışaraq insanlara xidmət etmək mənim üçün ali məqsəddir. Burada qazandığım bilik və təcrübə mənim ən güclü dayağım olacaq.

Bütün müəllimlərimə, kollecin rəhbərliyinə və xüsusilə qrup rəhbərimiz Nuranə Əliyevaya verdikləri dəyər və dəstəyə görə sonsuz təşəkkür edirəm.

Quba Tibb Kollecinin məzunu olmaq mənim üçün böyük qürur, yüksək status və fəxrdir!

**Arzu Ramazanova,**
**oxuduğu 18-ci qrup adından**